# Yeni dövr, yeni tələblər, yeni hədəflərə doğru

(Əvvəli 6-cı səhifədə).

Taxılçılıq, heyvandarlıqla yanaşı üzümçülükdə və meyvəçilikdə ixtisaslaşdırılmış komplekslərin inkişafına başlanılmışdır. Hazırda rayonda 458 hektar üzüm, 238 hektar meyvə bağları salınmışdır. Bu bağların əksəriyyəti məhsul verir. Bağların 25 hektarı ata-baba sortu, xüsusi olaraq Qəbələ üçün xas olan "Qızıl Əhmədi" alma sortudur. Bu alma sortu yüksək bazar tələbatına malik ən qiymətli alma sortudur.

Rayonda bağ məhsulları üzrə fındıqçılıq da xüsusi yer tutur. Hesablamalar göstərir ki, fındıq istehsalı ən ucuz başa gəlməklə ən dəyərli sahələrdən biridir və dünya bazarında bu məhsula tələbat olduqca çoxdur.

***—Cənab Əhmədov, söhbətimiz bir sıra məqamlara aydınlıq gətirdi. Deyə bilərikmi cənab Prezidentin tapşırıqları ilə rayonda aqrar sahənin yeni mərhələsinə artıq başlanmışdır.***

—Şübhəsiz ki, bu, real bir faktdır. Xüsusi olaraq onu da qeyd edə bilərəm ki, kənd təsərrüfatının bütün sferaları rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin diqqət mərkəzindədir. Cənab başçı yeni mərhələdə nəticələrə vaxtında, gecikmədən nail olmaq üçün yüksək diqqət və qayğı göstərir. Bu günlərdə mütəxəssislərlə görüşündə də məsələyə ciddi yanaşan hörmətli başçı onlara öz tövsiyyə və tapşırıqlarını verdi. Rayonda tütünçülüyün, baramaçılığın inkişaf etdirilməsini xatırlatdı.

Yaxın gələcəkdə bir çox aktual məsələlərin də həlli nəzərdə tutulur. Məsələn, üzümün ilkin emalı, şərab, qarışıq yem istehsalı zavodlarının tikintisi, ət kəsimi məntəqəsinin açılması, bostan-tərəvəz məhsulları istehsalının genişləndirilməsi, quşçuluğun bundan sonra da inkişaf etdirilməsi nəzərdə tutulur. Bu məsələlərin həlli rayonda kifayət qədər iş yerlərinin yaradılmasına, əhalinin həyat tərzinin daim yaxşılaşdırılmasına yönəldilmişdir. Əlbəttə, bunların hamısına nail olmaq üçün dövlət dəstəyi, işdə reallıq, saflıq və şəffaflıq, adamların islahatlara bağlılığı, inamı da başlıca şərtdir. Bunlardan birincisi vardır, ikincisi isə bizdən asılıdır. Əgər bu dediklərimiz varsa qələbə də var, uğur da.

***—Tamamilə doğrudur. Cənab Əhmədov, əgər proqnozlar həyata keçirilərsə rayonda texnika cəhətdən imkanlar necədir?***

—Rayonda təsərrüfatların texnika ilə təminatı da pis deyil. Fermerlərimiz, ümumiyyətlə, sahibkarlarımız indiyə qədər hər hansı bir iş görüblərsə texnika cəhətdən çətinliklər müşahidə olunmayıb. Hazırda rayonumuzda 61 ədəd taxılbiçən kombayn, 30 ədəd tırtıllı traktor, 416 ədəd təkərli traktor, 24 ədəd buldozer, 45 ədəd ekskavator, 8 ədəd yemtoplayan aqreqat, 8 ədəd digər özüyeriyən işlək texnika vardır. Əlavə olaraq "Aqrolizinq" ASC-nin Qəbələ rayon filialında 53 ədəd özüyeriyən qoşqulu texnika vardır ki, bunların da 23-ü taxılyığan kombayndır. Maşın-traktor parkının genişlənməsi də müntəzəm olaraq davam etdirilir.

***—Cənab Əhmədov, müsahibə üçün redaksiyamız adından sizə təşəkkür edirəm. Sonda bu nəticəyə gəlirik ki, yeni idarənin yolu, istiqaməti cənab Prezident İlham Əliyevin tapşırıqları əsasında yeni tələblərə, yeni hədəflərə doğrudur. Sizə və kollektivinizə bu yolda uğurlar olsun.***

**Müsahibəni qələmə aldı:**
**Nadir ATAKİŞİYEV.**

# 21 Mart–Beynəlxalq iqri ayrı-seçkiliyə qarşı mubarizə günüdür

Canlı varlığın ən alisi olan insan oğlunun tarixi müharibələr, çəkişmələr, irqi ayrı-seçkilik tarixidir. Əfsanəyə görə həzrəti Adəmin övladları Habil və Qabil bir-birinə qənim kəsilmişlər. Habil Qabili öldürmüş və buna görə Adəm peyğəmbər Habili daim qovğada olasan deyə qarğımışdır. Guya elə buna görə də insanlar daim qovğa, dava-dalaş içərisindədirlər. Bəşəriyyətin yarandığı təxminən 4 milyard illik tarixin cəmi 200 ili müharibəsiz keçmişdir.

Buna baxmayaraq tarixin bütün dönəmlərində cəmiyyətin içərisindən çıxmış aqil adamlar insanların bir yerdə barış, əmin-amanlıq içərisində yaşamasına çalışmışlar. Təəssüf ki, çox az hallarda buna nail olmuşlar. Dinlərin yaranması eyni inanclı qəbilələr, tayfalar arasında ilk dönəmlərdə sülh yaratmağa nail olsa da, təriqətlərin meydana gəlməsi eyni dinə qulluq edən insanlar arasında da təfriqəyə yol açdı.

Bizim eranın orta əsrlərindən başlayaraq bəşər taixində misilsiz intibah dövrü başlandı. Dünyanı dəyişdirməyə qadir olan elmi kəşflər baş verdi. Ancaq insanlar arasında irqi, milli dini və təriqət ayrı-seçkiliyi aradan qaldırılmadı. Əksinə daha da alovlandı. XIX əsrdə belə insanlar dünyanın qul alvercilərinin əmtəəsi kimi istifadə olunurdu. Təəssüf ki, dünya inkişafının ən yüksək dövru sayılan XX və XXI əsrdə də insanlar milli, dini və irqi ayrı-seçkiliyə məruz qalırlar. Bu ayrı-seçkiliyə dair yüzlərlə nümunə gətirmək mümkündür. Yazımızın məqsədi bu olmadığından XX əsrdə və cari günlərimizdə dünyada irqi ayrı-seçkiliyə qarşı görülən tədbirlərdən bəhs edəcəyik. Milyonlarla insanın məhvinə səbəb olmuş İkinci Dünya Müharibəsində insan hüqaqlarının pozulmasına və insan ləyaqətinin alçaldılmasına yönəldilmiş ən amansız və yolverilməz üsullardan istifadə olunmuşdur. Bu dəhşətli hadisə dünya xalqların həmrəy olmağa səslədi və 1945-ci il aprelin 25-də Birləşmiş Millətlər Təşkilatını yaratmağa sövq etdi. BMT-nin oktyabrın 25-də qəbul edilmiş Nizamnaməsinin 7 bəndi bilavasitə insan hüquqları məsələsinə həsr edilmişdir.

Bunlardan biri 1948-ci ildə BMT-nin insan hüquqları üzrə Xüsusi Komissiyasının yaradılması üçün əsas olmuşdur.

2 il davam edən gərgin işdən sonra 1948-ci il dekabrın 10-da BMT Baş Məclisi "İnsan hüquqları haqqında Ümumi Bəyannamə" qəbul etdi. Bu "Bəyannamə"nin qəbul edilməsində əsas məqsəd insan hüquqlarını və bütün dövlətlərin əməl etməli olduğu normaları müəyyənləşdirmək idi.

Dünya xalqları "Bəyannamə"nin müddəalarından öz hüquqları, sülh, demokratiya və tərəqqi uğrunda mübarizədə istifadə edirlər.

1965-ci ildə BMT Baş Məclisi "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Beynalxalq Konvensiya" qəbul etdi. Bu Konvensiyada "irqi ayrı-seçkilik" anlayışının tərifi verilmiş, irqi ayrı-seçkilik pislənmiş, ölkələrində irqi ayrı-seçkiliyə və ya onun saxlanmasına səbəb olan siyasəti dəyişmək dövlətlərin öhdəsinə buraxılmışdı.

1966-cı il oktyabrın 26-da BMT Baş Məclisi "İrqi ayrı-seçkiliyin ləğvi uğrunda Beynəlxalq Mübarizə Günü"nün təsis edilməsi haqqında qərar qəbul etdi. Beynəlxalq birlik bununla beynəlxalq ictimaiyyəti irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi uğrunda səylərini birləşdirməyə çağırdı. 1979-cu ildə Baş Məclis rasizmə və irqi ayrı-seçkiliyə qarşı mübarizə onilliyi elan etdi. Baş Məclis bütün dövlətlərə müraciət edərək, hər il martın 21-dən başlayaraq, rasizmə və irqi ayrı-seçkiliyə qarşı mübarizə aparan xalqlarla həmrəylik həftəsi keçirməyə çağırdı.

Həmin vaxtdan başlayaraq hər il martın 21-i İrqi Ayrı-seçkiliyə Qarşı Mübarizə Günü kimi qeyd olunur.

Ölkəmiz Azərbaycan milli dini və irqi ayrı-seçkiliyə qarşı mübarizənin önündə gedən dövlətlərdən biridir. Burada yaşayan bütün millətlərin və xalqların nümayəndələri irqindən, dinindən, təriqətindən, dilindən asılı olmayaraq bərabər hüquqa malikdirlər. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2016-cı il Azərbaycan Respublikasında «Multikulturalizm ili» elan olunub. Bununla əlaqədar geniş tədbirlər planı hazırlanıb həyata keçirilir.

**Qüdrət SƏMƏDOV.**

# "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın iştirakçıları Qəbələdə

Respublikamızın şəhər və rayonlarının IX—XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar çərçivəsində Bərdə, Ağcabədi və Mingəçevir məktəbliləri Qəbələ olmuşlar. Məktəblilər burada tarixi abidələr, turizm obyektləri, mənzərəli yerlər, adət-ənənələr, eləcə də son illər inşa edilən istehsal müəssisələri və sosial obyektlərlə yaxından tanış oldular. Qəbələyə səfər edən şagirdlər Heydər Əliyev Mərkəzinə baxış keçiriblər. Mərkəzi ziyarət edən məktəblilər burada ulu öndər Heydər Əliyevin həyatını və siyasi fəaliyyətini əks etdirən fotoşəkillərə və sənədlərə baxıblar.



Şagirdlər muzeyin qarşısında kollektiv xatirə şəkli çəkdiriblər. Tur-aksiya iştirakçıları sonra "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində, Heydər Əliyev adına Konqres Mərkəzində, Tarix-Diyarşünaslıq Muzeyində, "Beltmann" piano fabrikində, "Gilan Qida Şəhərciyi" və Nic qəsəbəsindəki "Cotari" Alban-Udi kilsəsində ndə oldublar.

Daha sonra Çuxur Qəbələ kəndinə gələn məktəblilərə qədim Qəbələ şəhərinin qalıqları və ərazidə aparılan arxeoloji qazıntılar haqqında məlumat verildi.

Məktəblilər Qəbələyə səfərlərinin sonunda beşulduzlu "Qafqaz Riverside", "Qafqaz Resort", "Qafqaz Yeddi Gözəl", "Qafqaz Karvansaray" otelləri, "Qəbələnd" İstirahət və Əyləncə Mərkəzi, rayonda yaradılan müasir turizm infrastrukturu, bölgənin füsunkar təbiəti ilə də tanış olublar.

Mart ayının 18-də şagirdlər xoş təəssüratlarla Şəki şəhərinə yola düşüblər.

**Zahir Kərimov,**
**RİH informasiya təminatı və təhlili sektorunun müdiri.**

# Əczaçılıq məhsulları istehsalı üzrə Azərbaycanla İran arasında birgə müəssisə yaradılacaq

İranın «Darou Pakhsh» şirkətinin Azərbaycanda səfərdə olan nümayəndələri ilə iqtisadiyyat naziri Şahin Mustafayevin görüşü olub. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə görüşdə İran tərəfinin ölkəmizdə əczaçılıq məhsulları istehsalı müəssisəsinin yaradılmasına dair təklifləri ilə bağlı müzakirə aparılıb.

Müzakirədən sonra İran şirkətinin nümayəndələri əczaçılıq məhsulları istehsalı üçün Azərbaycan tərəfindən tikintisi təklif edilən Sumqayıt Kimya Sənaye Parkına səfər edib, investorlar üçün yaradılan imkanlarla tanış olublar.